

*Rəşid Faxralı*

# "Bayraqtəpə odası"

**(esse)**

***Əməkdar İncəsənət xadimi polkovnik Abdulla Qurbaniyə***

...Ürəyimlə bir oda dinləyirəm. Hələ dinləmədiyim odadı - "Bayraqtəpə odası". Dinlədiklərimi görürəm də..

**Buludlar çaxnaşır...**
**İldırım çaxır...**

İldırım hara düşməlidirsə, ora düşür. Bu torpağın göyü də, göyündə şimşəyi də xeyiri şərdən, yadı doğmadan, yaxşını pisdən, dumanı sisdən,... seçə bildiyindən dünənəcən yerə-göyə köntöy baxanların çoxu torpağa döşəli qalır.

**Yağış kəsir...**
**Göy üzü açılır...**

Göy üzündə indiyəcən gördüyümüz göyqurşaqlarından gözəl göyqurşağı görünür. Ümid kimi, inam kimi görünür. Bu yana əl eləyir, o yana barmaq qıcayır. Bu tərəfdəkilər bir sevincə, bir qətiyyətə dirsəklənir, o tərəfdə sağ qalanlar qınına çəkilir, qın darlıq eləyir - qaçıb uzaqlaşır. Torpaq ciyərdolusu nəfəs alır...

**"Bayraqtəpə odası"nı dinləyirəm...**
**Niyə Kəpəzə Kəpəz deyirik?**
**Niyə Qoşqara Qoşqar deyirik?**
**Niyə Şahdağa Şahdağ deyirik?.**
**Niyə Lələtəpəyə Lələtəpə deyirik?**

...

Buludların çaxnaşmasına, ildırımın çaxmasına, yağışın yağmasına ürəyimin gözüylə baxdığımdan bu "niyə"lər haqqında düşünə bilmirəm...

Niyə bir aydı bura Bayraqtəpə deyirik?..

Aydınlıqdı...

"Ulduzlar da oyaqdı, mən də" (Şəhriyar)...

Buludların arxasına meyllənən Aydı, oyaq ulduzlardı, mənəm, bir də "Bayraqtəpə odası"dı. Göylərinmi yerə qılığıdı, yerinmi göylərə, bilmirəm. "Bayraqtəpə odası" yeri göyə dikəldəcək, göyləri yerə ələyəcək sanki...

Ürəyiylə dinləyənlər bu odanı "Lələtəpə fatehləri"nin,

**Bayrağa döndərib qanlı köynəyi,**
**Şuşa qalasına sancmaq vaxtıdı! -**

misralarının zəmanətiylə "Çağırış" marşının məntiqi davamı bilir. "Bayraqtəpə odası" deyir ki, Bayraq hələlik Lələtəpəyə, Bayraqtəpəyə sancılıb. Yaxın vaxtlarda Şuşa qalasına da sancılacaq!

Aprelin əvvəllərində dörd gün çəkən döyüşlərə kimi abu təpənin. İndi "Bayraqtəpə" deyirlər. Həmin döyüşlərdə şəhid olan döyüşçülərin ruhuna ehtiram kimi...

Aprel döyüşləri həm də Dədə Qorqud missiyası oldu: "Adını mən verdim, qüdrətini tanrı versin!.."...

Təzə ada ("Bayraqtəpə") ad olan odanı ("Bayraqtəpə odası") dinlədikcə misraların



işığında min illərin o üzündə qalanları görürəm. Bu işıqda Atabəyləri görürəm, Səfəviləri görürəm, Şirvanşahları görürəm, ..., döyüşlərdə şəhid olanları görürəm. Bir də bu odanın müəllifi Abdulla Qurbanini - səngərlərdə əli əsgər çiyinlərindən üzülməyən, Torpağa, əsgərə ehtiramı səngərləşən, aşıb-daşan, "Çağıırış"ıyla hamımıza qardaş olan, "Lələtəpə fatehləri"ylə döyüşçülərə sirdaş olub Atabəyləşən, Səfəviləşən, ..., Azərbaycanlaşan Abdulla Qurbanini...

"Bayraqtəpə odası" gecənin can köynəyinin ilmələrini sökməkdəykən, baxışlarım sökülən dan yerinin şəfəqlərinə bükülməkdəykən könlümü tellədirən, düşüncələrimi dillədirən odanın son mis-ralarından "dördəlli yapışıram": məni bu hala salıb da bitmək insafsızlıqdı...

"Bayraqtəpə odası"nda "Misri"nin işığını görürəm...

"Cəngi"nin, "Qəhrəmanı"nin, "Ruhani"-nin, ... işığını görürəm...

Yusif Mirzəyevi xatırlayıram, Vəzir Orucovu, Koroğlu Rəhimovu, Mübariz İbrahimovu, ..., Elnur Əliyevi, ..., Murad Mirzəyevi, Samit İmanovu xatırlayıram. Bu odanı onlar da belə dinləyərdilər. Şəhid oldular. "Könlümüzün məhbubu olan" (Abbas Səhhət) Vətən naminə. İndi ruhları dinləyir...

...Hələ neçə-neçə odalar yazılacaq. Onların ən möhtəşəmi "Qələbə odası" olacaq!..

Hava elə gözəldi ki!..

"Bayraqtəpə odası" əlimdən yapışıb məni səngərlərə çəkməkdədi. Səngərlərin o üzündən sərhədlərimizəcən dağı-daşı da dikəldəcək gözəlim "Bayraqtəpə odası"...

Abdulla Qurbani səngərlərdədi. Əsgərlərimizin yanında. "Bayraqtəpə odası"nı dinləyirlər...